# "Xilaskar"ın unudulmaz şəhidləri




***Vaxtiylə Kəlbəcər istiqamətində döyüşən döyüşçülərin bir dəstəsi 701sayli h/h-yə ezam olunmuşdur. Onlar müxtəlif rayonlardan səfərbər olmuş gənc əsgərlərdən ibarət idi. 6-cı Tabor "Xilaskar"da ağır döyüşlərdən sonra şəxsi heyyətin yenilənməsi üçün Hacıkəndə ezam edilmişdi. Yeni yaranmış bölüyü "Xilaskar" Taborunun tərkibinə vermişdilər. Bir müddət sonra, Kəlbəcər əməliyyatlardan öncə "Xilaskar" Taborunu bölük şəkilində 5-ci Bərdə taborunun tərkibinə verilməsi igidlərmizi ruhdan salmamışdı. Bu taborun tərkibində igidlərmiz böyük Meydançay, Qızılqaya, Buzluq və başqa əməliyyatlarda sücaətlər göstərmişdi.***

Kəlbəcərə gedən yolun təhlükəsizliyi üçün Bağırlı, Bağırsaq kəndləri düşməndən tam təmizlənməli idi. Bu həm də, sonradan Buzluq istiqamətində keçiriləcək əməliyyatların başlanğıcı idi. Buzluq əməliyyatından sonra isə Ağdərə istiqamətində keçiriləcək əməliyyatlar və Kəlbəcər, Ağdərə cəbhəsinin birləşməsinə xidmət edəcəkdi. Briqada komandalığı tərəfindən tabora Bağırlı, Bağırsaq kəndlərinin boşaldılması və strateji yüksəkliklərin tutulması əmri verilmişdi. Bu əməliyyat çox məsuliyyətli bir əməliyyat idi. Əməliyyata briqadanın siyasi məsələlər üzrə müavini İntiqam Mirzoyev və bizim taborun keçmiş komandiri Vəli Bayramov başçılıq edirdi. Hazırlıq işləri bitdikdən sonra kəndə doğru irəlilədik, əməliyyata gedən dəstəmiz, İntiqam Mirzoyev tərəfindən üç istiqamətə getmək üçün bölündü. Kəndə yaxınlaşanda Vəli Bayramov yerdəki izlərə baxaraq kəşfiyyat zamanı bu izlərin olmadığın bildirib, hamıya tapşırdı ki, ehtiyyatlı olun bu bir tələ ola bilər. Görünən o idi ki, ermənilər də həmin kəndlərin nə qədər strateji əhəmiyyətli olduğunu anlayıb ora çoxlu qüvvə yığmışdı. Doğrudan da kəndə girməyə az qalmış düşmən bütün silahlardan istifadə etməklə bizi atəşə tutdu. Komandirimiz müdafiyə mövqeyi qurmağı və mümkün qədər mina atanların atəş nöqtəsindən uzağlaşmaq əmrini verdi. Şiddətli döyüş başladı. Hər yandan gülə yağış kimi yağırdı. Bağırlı uğrunda gedən həmin döyüşlərdə 2 nəfər döyüş yoldaşımız, sıravi Abbasov Rasim Xanoğlan oğlu və çavuş Qubatov Rahim Rəhman oğlu şəhid oldu.

***Abbasov Rasim Xanoğlan oğlu 1 iyun 1965-ci ildə Ağdaş rayonunun Qaradeyin kəndində anadan olub. 1993-cü il 16 mart tarixində Sumqayıt şəhər hərbi komisarlığından könülü olaraq cəbhəyə yollanıb. Böyük Meydançay, Qızılqaya, Buzluq və başqa döyüşlərdə mərdlik, igidlik, sücaət göstəribdir. Qızılqaya əməliyyatında Rasim döyüş yoldaşlarını atəş altında görüb, onlara tərpənməməyi bildirmiş və mövqeyi yaxşı olduğundan tək başına ondan çox erməni məhv etmişdi. Bu Rasimin sərrast snayperçi olduğundan irəli gəlirdi.***

1994 cü il Yanvarın 22 də Rasimin qız övladı anadan oldu. Döyüş yolaşları onun evə getməsini istəməyinə baxmayaraq o evə getmədi. Vətəni, döyüş yoldaşlarını darda qoymaq istəmədi. 1994-cü il yanvar ayının 28-də Kəlbəcər rayonu Bağırlı kəndi uğrunda gedən döyüşdə boğazından aldığı güllə yarasından şəhid oldu. Rasim Abbasov doğulduğu Ağdaş rayonu Qaradeyin kəndində dəfn olunub. Oğlu Pirim və qızı Rasimə bizlərə Allahın əmanətidir. Qardaşımıza Allahdan rəhmət, doğmalarına səbir diləyirik.

Qubatov Rahim Rəhman oğlu 12 yanvar 1967-ci ildə Quba rayonunjn ikinci Nügədi kəndinfə anadan olub. Kəlbəcər əməliyyatlarından əvvəl dəfələrlə kəşfiyyat xarakterli əməliyyatlarda iştirak edib. Böyük Meydançay, Qızılqaya, Buzluq və başqa əməliyyarlarında da iştirak etmişdir. Qızılqayanın alınmsında mühüm iş görən qızıl onluq dediyimiz qrupda Rahim də var idi. Rahim qardaşımız bütün döyüşlərdə igidlik, şücaət göstərmişdir. Bağırlı uğrunda gedən ağır döyüşlərdə düşmənin mövqelərini öyrənir, sonra qrantamyotla onları susdururdu. Daha bir düşmən mövqeyinə atəş etdiyi zaman dizindən aldığı güllə yarası ilə döyüşçü yoldaşının üzərinə düşən Rahim, ikinci güllə yarası alır və bir qədər sonra şəhadətə qovuşur. Son sözü o olur ki, məni burada buraxmayın. Rahim Quba rayon Nügədi kəndində dəfn edilib. Qürur verici haldır ki, doğulub, boya-başa çatdığı küçə Rahimin adını daşıyır.

***Kəlbəcərə gedən yolun təhlükəsizliyi üçün Bağırlı, Bağırsaq kəndləri düşməndən tam təmizlənməli idi. Bu həm də, sonradan Buzluq istiqamətində keçiriləcək əməliyyatların başlanğıcı idi. Buzluq əməliyyatından sonra isə Ağdərə istiqamətində keçiriləcək əməliyyatlar və Kəlbəcər, Ağdərə cəbhəsinin birləşməsinə xidmət edəcəkdi...***

***Şəhidlərmizi tanıyaq və tanıtdıraq. Onlar bizim qürur mənbəyimizdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, şəhadətləri mübarək olsun!***

**Döyüş yoldaşları**